

# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## *Düşünülmüş strategiya, düzgün taktika*

# Azərbaycanın şərəf tarixini yaradan Lider



### Prezident İlham Əliyevin ötən il andiçmə mərasimində elan etdiyi prioritetlər uğurla reallaşır

**Respublikamızda 2024-cü il fevralın 7-də keçirilən növbədənkənar prezident seçkiləri Azərbaycanın demokratik inkişafının nümayişi olmaqla, əlamətdar siyasi hadisəyə çevrildi. Bu seçkidə möhtərəm İlham Əliyevin ətrafında sıx səfərbər olan xalqımız Ulu Öndər Heydər Əliyevin ideyalarının və Azərbaycanın yüksəlişinin davamına səs verdi. Bu seçki dövlətimizin və xalqımızın maraq və mənafelərini layiqincə qoruyan, Azərbaycana qalibiyyət gətirən, ərazi bütövlüyümüzü bərpa edən siyasi kursun bütün cəmiyyətimiz tərəfindən alternativsiz olaraq qəbul olunduğunu bir daha nümayiş etdirdi.**

### Ümummilli etimadın möhtəşəm təcəssümü

Seçkilərin növbədənkənar keçirilməsi demokratik seçki praktikasında rast gəlinən hadisədir. Fərəhli haldır ki, Azərbaycanda prezident seçkiləri hər bir vətəndaşımızı dərindən qürurlandıran tarixi hadisəyə - torpaqlarımızın işğaldan azad edilməsinə və ərazi bütövlüyümüzün bərpa olunmasına görə növbədənkənar keçirildi. Bu yeni tarixi reallıqlar şəraitində ölkəmizdə ilk olaraq məhz prezident seçkilərinin keçirilməsinə dövlət başçısı cənab İlham Əliyev ötən ilin yanvarında yerli televiziya kanallarına müsahibəsində belə aydınlıq gətirdi: "Birinci səbəb təbii ki, suverenliyimizin tam bərpasıdır, çünki seçkilər bir dövrə yekun vurur. Sentyabr ayında biz elə bir dövrə yekun vurmuşuq ki, bu, epoxal bir hadisədir. Yəni Azərbaycanın çoxəsrlik tarixində mən hesab edirəm ki, buna oxşar Zəfər olmamışdır. Bütün amilləri - siyasi, hərbi və 30 illik işğalı, ərazinin relyefini, müdafiə xətlərinin çox olmasını nəzərə alsaq, hesab edirəm ki, bu, xalqımızın, dövlətimizin ən parlaq Qələbəsidir. Təbii ki, bu yeni dövr başlayarkən, əlbəttə, prezident seçkiləri də bu yeni dövrün başlanğıcı olmalıdır. Çünki hər bir dövr bir zaman kəsiyidir və 30 il ərzində işğal altında olmuş ərazilərin işğaldan azad edilməsi və suverenliyi tam bərpa etməyimiz yeni dövrün başlanğıcı idi. Bu, birinci səbəbdir.



İkinci səbəb ondan ibarətdir ki, ilk dəfə olaraq müstəqil həyatımızda seçkilər ərazilərimizin hər bir yerində keçiriləcək. Prezident seçkiləri bütün digər seçkilərlə müqayisədə ən vacib seçkilər olduğu üçün mən hesab etdim ki, birinci bütün ərazilərdə keçiriləcək seçkilər prezident seçkiləri olmalıdır".

Beləliklə, növbədənkənar prezident seçkiləri Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra buna qədər keçirilmiş bütün seçkilərdən məzmununa və miqyasına görə fərqləndi. Hər şeydən əvvəl bu seçki torpaqlarımızın işğaldan azad olunmasından, Qarabağ və Şərqi Zəngəzurda milli suverenliyimizin və Azərbaycan dövlətinin konstitusion əsaslarının bərpasından sonra respublikamızın qədəm qoyduğu yeni tarixi dövrün siyasi başlanğıcı oldu.

İkincisi isə növbədənkənar prezident seçkiləri Azərbaycanın müstəqilliyi tarixində Qarabağ və Şərqi Zəngəzurda təşkil edilən ilk seçki oldu. Müstəqil Azərbaycanın vətəndaşları ilk dəfə olaraq məhz bu seçkidə Zəngilanda, Laçında, Şuşada, Xankəndidə səs verdilər. Cənab İlham Əliyev də bu seçkidə ailə üzvləri ilə birlikdə qədim yurd yerimiz olan Xankəndidə səs verdi. Digər siyasi məziyyətləri ilə yanaşı, növbədənkənar prezident seçkiləri bütün ərazilərimizdə Azərbaycanın milli suverenliyinin və konstitusion normalarının bərpa olunduğunu, Qarabağda erməni separatçılığına son qoyulduğunu dünyaya bəyan etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin Xankəndidə seçki qutusuna atdığı bülleten isə, özünün də dediyi kimi, sadəcə olaraq bülleten deyildi, bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi.

Cənab İlham Əliyev bu seçkidə Yeni Azərbaycan Partiyasının namizədi kimi iştirak etdi. Amma möhtərəm İlham Əliyev seçkiyə sadəcə partiyanın namizədi kimi getmədi. Ulu Öndər Heydər Əliyev siyasətinin ən layiqli davamçısı və Azərbaycanın 2003-cü ildən sonra qazandığı bütün uğurların müəllifi kimi Prezident İlham Əliyev bu seçkidə bütövlükdə xalqın namizədi kimi iştirak etdi və bu, onun topladığı səslərin yüksək faizində özünü aydın göstərdi. Xalqımız bu seçkidə ötən dövrdə əldə edilən möhtəşəm tarixi nailiyyətlərə, Azərbaycanı qüdrətli dövlətə çevirən siyasi kursa istinad etdi və bunların növbəti mərhələdə də davamını arzulayaraq, cənab İlham Əliyevə etimad göstərdi. Bu etimad həm də növbəti illərdə Prezident İlham Əliyevin Azərbaycanın inkişafına, uğurlu gələcəyinə daha çox töhfələr verəcəyinə xalqımızın dərin və səmimi inamının göstəricisidir.

### Azərbaycan öz məqsədlərinə doğru inamla irəliləyir

Fevralın 14-də cənab İlham Əliyevin Azərbaycan Prezidenti kimi yeni səlahiyyət müddətinə başlamasının birinci ili tamam olur. Ötən ilin bu günü Milli Məclisdə Azərbaycan Prezidenti kimi dövlətə və xalqa sədaqət andı içən möhtərəm İlham Əliyevin nitqini qürurla, fərəhlə izlədik. Çünki bu çıxış Prezident İlham Əliyevin uğur hesabatı və tarixin ən qüdrətli Azərbaycanının təqdimatı idi.

Prezident İlham Əliyev proqram xarakterli çıxışında dövlətimizin qarşısında dayanan əsas milli hədəflərin nələrdən ibarət olduğunu, qarşımızda hansı başlıca vəzifələrin dayandığını bəyan etdi. Dövlət başçısının elan etdiyi bu prioritetlər milli maraq və mənafelərimizin qətiyyətlə qorunması, ordumuzun döyüş qabiliyyətinin, hərbi potensialının daha da artırılması, müdafiə sənayesinin inkişafı, sərhədlərimizin etibarlı müdafiəsi, iqtisadi inkişafın daha da sürətləndirilməsi, işğaldan azad edilmiş ərazilərimizin bərpası, Böyük qayıdış proqramının həyata keçirilməsi, nəqliyyat infrastrukturunun genişləndirilməsi, əhalinin sosial rifahının yüksəldilməsi, bərpaolunan enerjiyə keçid, sabit neft-qaz hasilatı, türk dünyası ilə əlaqələrin dərinləşdirilməsi və texnoloji tərəqqidir. O cümlədən azərbaycançılıq məfkurəsinin və xalqımızın həmrəyliyinin daha da gücləndirilməsi, gənc nəslin vətənpərvərlik ruhunda yetişdirilməsi yeni dövr üçün qarşıda dayanan milli-mənəvi vəzifələrdir.

Bir il kiçik zaman kəsiyidir. Lakin bu qısa dövrdə respublikamızda görülən işlər və əldə olunan nəticələr Prezident İlham Əliyevin ötən il Milli Məclisdə andiçmə mərasimindəki nitqində elan etdiyi məqsədlərin, qarşıya qoyduğu vəzifələrin sürətli icrasından, Azərbaycanın öz hədəflərinə doğru inamla addımlamasından xəbər verir. Bu gün dönüb arxaya boylananda Prezident İlham Əliyevin qısa dövrdə nə qədər möhtəşəm uğurlara imza atdığının şahidi oluruq.

Öncə onu qeyd etməliyik ki, Prezident İlham Əliyevin yeni səlahiyyət müddətinin ilk ili Azərbaycanın milli maraq və mənafelərinin qətiyyətlə təmin olunduğunu nümayiş etdirən hadisələrlə əlamətdardır. Bu sırada əsas siyasi nailiyyətlərdən biri 2020-ci ilin noyabrında Qarabağ iqtisadi rayonunda yerləşdirilmiş Rusiya Federasiyasının sülhməramlı kontingentinin ərazilərimizi tərk etməsidir. 10 noyabr üçtərəfli Bəyanatına əsasən sülhməramlıların Qarabağda qalma müddəti 5 il nəzərdə tutulmuşdu. Lakin 2023-cü ilin sentyabrında keçirilən antiterror tədbirlərindən sonra sülhməramlıların fəaliyyətinə ehtiyac qalmadı. Beləliklə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin düşünülmüş və uzaqgörən siyasəti nəticəsində sülhməramlıların Azərbaycanda qaldıqları müddət heç 4 ilə çatmadı. Bununla bir daha təsdiq olundu ki, Prezident İlham Əliyev Azərbaycanın milli maraqlarını qətiyyətlə təmin edir.

O da məlum idi ki, adını müxalifət qoyan, əslində isə antimilli fəaliyyətlə məşğul olan siyasi qaragüruh mütəmadi olaraq sülhməramlılarla bağlı spekulyativ açıqlamalar verir, onların Azərbaycan ərazilərindən çıxmayacaqları kimi sərsəm iddialar irəli sürürdülər. Lakin Rusiya sülhməramlılarının vaxtından tez Azərbaycandan çıxarılmasını təmin etməklə Prezident İlham Əliyev onların bütün əsassız və spekulyativ iddialarını darmadağın etdi.

Prezident İlham Əliyevin geridə qalan bir illik fəaliyyətinin milli maraqlarımızın qorunması baxımından başqa bir əlamətdar göstəricisi Qazax rayonunun işğal altında olan Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin işğaldan azad edilməsidir. Bu 4 kəndin işğaldan azad olunması həm də onu təsdiq etdi ki, Ermənistanla münasibətlərin normallaşdırılması prosesi məhz Azərbaycanın irəli sürdüyü şərtlər əsasında gedir.

Qarabağ və Şərqi Zəngəzurun bərpası da ötən bir ildə sürətlə davam etdirilib. Bu dövrdə Şuşa, Xocalı, Cəbrayıl şəhərlərinə, Xocalı rayonunun Ballıca kəndinə keçmiş məcburi köçkünlərin qayıdışı təmin edilib, Xankəndidə Qarabağ Universiteti fəaliyyətə başlayıb. Prezident İlham Əliyevin işğaldan azad edilmiş rayonlara hər bir səfəri inşası başa çatdırılan obyektlərin, yaşayış məhəllələrinin açılışı, yeni layihələrin, o cümldən yenidən qurulan kəndlərin təməlinin qoyulması ilə əlamətdar olub.

Azərbaycanın iqtisadi inkişafı cənab İlham Əliyevin nəinki hər prezidentlik müddətinin, eləcə də fəaliyyətinin hər bir ilinin prioritet vəzifəsi olub. 2003-cü ildən indiyədək iqtisadiyyatımızın 3 dəfədən çox artması, ölkədə illik ümumi daxili məhsul istehsalının 100 milyard manatı, habelə 2025-ci ildən dövlət büdcəsinin xərclərinin 41 milyard manatı ötməsi iqtisadi inkişafın əsas göstəriciləridir. Məmnunluqla qeyd edilməlidir ki, Prezident İlham Əliyevin yeni müddətə fəaliyyətinin ilk ili də iqtisadi inkişafın davamlı olması ilə əlamətdardır. Belə ki, bu dövrdə ümumi daxili məhsul 4 faizdən çox, qeyri-neft sektorunda ümumi daxili məhsul 6 faizdən çox, qeyri-neft sənaye sahəsində isə artım 7 faizdən çox olub. Azərbaycanın valyuta ehtiyatları isə ötən bir ildə 72 milyard dolları ötüb. Minimum əməkhaqqı 345 manatdan 400 manata, minimum pensiyanın 280 manatdan 320 manata qaldırılması da məhz iqtisadi inkişafın, dövlətimizin maliyyə imkanlarının yüksəlməsinin nəticəsidir.

Prezident İlham Əliyevin andiçmə mərasimində toxunduğu məsələlərdən biri ordumuzun daha da gücləndirilməsi, hərbi potensialımızın artırılmasıdır. "Bu gün Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı lazımi addımlar atılır, lazımi silah-sursat, texnika alınır, yeni silahlı birləşmələr yaradılır. Xüsusi təyinatlı qüvvələrin sayı bir neçə dəfə artırılıb, yeni yaradılmış "Komando" silahlı birləşmələrində hərbçilərin sayı minlərlə ölçülür və bu proses davam edir. Biz elə ordu yaratmışıq ki, - bundan sonra da bu işlər davam edəcək, - heç kim bizə sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz" deyən Prezident İlham Əliyev ordu quruculuğu prosesinin davam etdiriləcəyini bildirmişdi.

Ötən bir ilin reallıqları göstərir ki, ordumuzun döyüş qabiliyyətinin gücləndirilməsi respublikamızda dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Bu dövr ərzində Silahlı Qüvvələrin potensialının gücləndirilməsi yeni hərbi çağırışlar əsasında davam etdirilib. Azərbaycanı öz ordusunun döyüş qabiliyyətini artırmağa sövq edən başqa bir amil isə Ermənistanın həyata keçirdiyi silahlanma siyasətidir. Bu ölkənin Fransa və Hindistan kimi dövlətlər tərəfindən müxtəlif hücum silahları ilə təchiz edildiyi bir vaxtda əlbəttə ki, Azərbaycan seyirçi qala bilməz. 2025-ci ilin dövlət büdcəsində hərbi məqsədlər üçün 8,4 milyard manat vəsaitin nəzərdə tutulması da bunu təsdiq edir. Bu onu göstərir ki, Ermənistan silahlanma yarışında Azərbaycanla heç vaxt rəqabət apara bilməyəcək. Başqa cür desək, Azərbaycan Ermənistan üzərində hərbi üstünlüyünü bundan sonra da qətiyyətlə qoruyacaq.

Prezident İlham Əliyevin fəaliyyətinin ötən bir ili respublikamız üçün müxtəlif uğurlarla da əlamətdardır. Şuşada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi, COP29-un uğurlu təşkili, Azərbaycanın D-8 təşkilatına üzv qəbul olunması, idmançılarımızın Parisdə keçirilən Yay Olimpiya Oyunlarından 7 medalla dönmələri ötən bir ilin mühüm siyasi-ictimai hadisələridir. Ən əsası bütün bunlar Prezident İlham Əliyevin liderliyi və müəllifliyi ilə qazanılan və Azərbaycanın qlobal nüfuzunun daha da yüksəlməsinə xidmət edən nailiyyətlərdir.

Bütövlükdə, Azərbaycanın şərəf tarixini yaradan Prezident İlham Əliyevin andiçməsindən ötən bir ilin mənzərəsi Azərbaycanın 12 aya sığmayacaq qədər yüksəlişindən xəbər verir. Bütün bunlar təsdiq edir ki, torpaqlarımızın işğaldan azad edilməsindən və bütün ərazilərimiz üzərində milli suverenliyimizin təmin olunmasından sonra qədəm qoyduğumuz yeni dövrdə qarşıya qoyulan bütün vəzifələr icra olunur, respublikamız öz məqsədlərinə doğru inamla irəliləyir. Dövlətimizin mənafelərinin reallaşmasına inamla xidmət edən siyasi kurs bundan sonra da qətiyyətli şəkildə davam etdiriləcək. Ötən 21 ildə formalaşmış zəngin təcrübənin, xüsusən ərazi bütövlüyümüzün bərpası və Qarabağda erməni separatizminə son qoyulması kimi tarixi nailiyyətlərimizin fonunda yeni mərhələdə qarşımızda dayanan hədəflərə çatmağımız üçün heç bir maneə olmayacaq.

***Ziyafət ƏSGƏROV,***
***Azərbaycan Respublikası***
***Milli Məclisi Sədrinin müavini***